# QANUN

№ 08 (310) / 2020

**BEYNƏLXALQ HÜQUQ**

**Mammadov Sahil Habil**

ARGUMENTATION OF TERRITORIAL INTEGRITY PRINCIPLE AND ITS IMPLICATIONS FOR NAGORNO KARABAKH CONFLICT ................ 3

**KONSTİTUSİYA HÜQUQU**

**Cəbi Gülşən Zabit qızı**

MADDİ VƏ PROSESSUAL NÜMAYƏNDƏLİK (BİR SIRA MƏSƏLƏLƏRƏ MÜQAYİSƏLİ HÜQUQİ BAXIŞ) ........ 10

**ƏMƏK HÜQUQU**

**Кабанов Андрей Владимирович**

ДИСЦИПЛИНАРНАЯ ОТВЕТСТВЕННОСТЬ РУКОВОДИТЕЛЯ АКЦИОНЕРНОГО ОБЩЕСТВА ........ 17

**Лапшин Константин Владимирович**

НЕТИПИЧНЫЕ ФОРМЫ ЗАНЯТОСТИ ПО ЗАКОНОДАТЕЛЬСТВУ МОТ И ЕВРОСОЮЗА ........ 21

**Оспанова Ботагоз Ахметжановна**

НЕЮРИСДИКЦИОННЫЕ ФОРМЫ ЗАЩИТЫ ИНДИВИДУАЛЬНЫХ ТРУДОВЫХ ПРАВ ........ 25

**CİNAYƏT HÜQUQU VƏ KRİMİNOLOGİYA**

**Qurbanov Habil Surxay oğlu**

**Əliyev Aydın Cəmil oğlu**

AZƏRBAYCAN RESPUBLİKASINDA ŞÜBHƏLİ VƏ TƏQSİRLƏNDİRİLƏN ŞƏXSLƏRİN MÜDAFİƏ HÜQUQUNUN TƏMİN EDİLMƏSİ CİNAYƏT PROSESİN KONSTİTUSİYA PRİNSİPİ KİMİ ........ 29

**Hüseynova Sevinc Usub qızı**

EPİDEMİYA ƏLEYHİNƏ REJİMİN, SANİTARİYA-GİGİYENA VƏ YA KARANTİN REJİMLƏRİNİN POZULMASINA GÖRƏ CİNAYƏT MƏSULİYYƏTİNİN ƏSASI ........ 36

**Мамедов Наиль Ибаят оглу**

ОБЪЕКТ ПРЕСТУПЛЕНИЯ ........ 45

**CİNAYƏT PROSESİ VƏ KRİMİNALİSTİKA**

**Əsgərov Aqil İltifat oğlu**

CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA ZƏRƏRÇƏKMİŞ ŞƏXSİN ZƏRƏRİNİN KOMPENSASİYASI PROBLEMLƏRİ ........ 50

**Халилов Элвар Мирзаалекбер оглу**

ПОНЯТИЕ И ЗНАЧЕНИЕ ФУНКЦИИ ДОКАЗЫВАНИЯ В УГОЛОВНОМ ПРОЦЕССЕ CİNAYƏT PROSESİ VƏ KRİMİNALİSTİKA ........ 62

**ISSN 2218-9130**

**Təsisçi:**
**ŞAHBAZ XUDUOĞLU**

**Redaktor:**
**FƏXRƏDDİN AĞAZADƏ**

**Məsul katib:**
**JALƏ İBRAHİMOVA**

**Kompüter tərtibatı:**
**RAHİLƏ ŞAMİLQIZI**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydə alınmışdır.
Şəhadətnamə № 0104-P83-41555

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə Hüquq elmləri üzrə «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı»na daxil edilmişdir.

**BANK REKVİZİTLƏRİ:**
**Kapital Bank Bakı şəhər filialı**
**Kod: 200026; VÖEN: 9900003611**
**Müxbir hesabı: 0137010001944**
**S.W.I.F.T. BIK AIIBAZ 2X**
**Hesab № 11533050000**
**VÖEN: 1700145131**
**Valyuta hesabı: 333150100**

**Format: 60x84 1/8**
**Fiziki çap vərəqi: 12**
**Sifariş: 192 Tiraz: 500**
**Qiyməti: 4 manat**

**«Qanun» mətbəəsinin ünvanı:**
**Nəsimi rayonu, Tb.prospekti, 76**
**Tel.: 431-16-62; 431-38-18**

QANUN

**ÜNVAN:**
Azərbaycan Respublikası,
Bakı, AZ 1102, Nəsimi rayonu,
Tbilisi pros., 76
**Tel.:** 431-16-62; 431-38-18
**Faks:** 431-38-18
**E-mail:** qanunjurnali1992@gmail.com
**www.qanun.az**

**GƏNC HÜQUQŞÜNASIN TRİBUNASI**

**BEYNƏLXALQ HÜQUQ**

**Əhmədli Günel Polad qızı**
SÜNİ İNTELLEKT SİSTEMLƏRİNİN VƏ İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ MEXANİZMLƏRİ ........ 68

**Muradbəyli Sənan Nizami oğlu**
ŞƏRQİ ARALIQ DƏNİZİNDƏ MÜSTƏSNA İQTİSADİ ZONALARIN MÜƏYYƏN OLUNMASI ZAMANI YARANAN PROBLEMLƏRƏ FƏRDİ BAXIŞ ........ 72

**Sırafilov Murad Etibar oğlu**
İNVESTİSİYA FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ BEYNƏLXALQ-HÜQUQİ TƏNZİMETMƏNİN ROLU ........ 83

**KONSTİTUSİYA HÜQUQU**

**Hüseynov Əliyar Akif oğlu**
AZƏRBAYCAN RESPUBLİKASINDA YERLİ İDARƏETMƏ VƏ ÖZÜNÜİDARƏETMƏ FƏALİYYƏTİNİN KONSTİTUSİYA HÜQUQİ ƏSASLARI ........ 89

"QANUN" JURNALINA ELMİ MƏQALƏ TƏQDİM ETMƏK ÜÇÜN QOYULAN TƏLƏBLƏR........93

# QANUN

- **Bu jurnal** öz hüquqlarını bilən və qoruyanlar üçündür. Jurnal 1992-ci il 08 yanvar tarixindən ayda bir dəfə nəşr edilir.
- **Hər sayda** tanınmış hüquqşünasların, iqtisadçıların, habelə hüquq və iqtisadiyyat sahəsində çalışan digər mütəxəssislərin elmi praktik məqalələri çap olunur.
- «Qanun» jurnalının **«Yeni sənədlər bületeni»**nin hər sayında Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, Konstitusiya Məhkəməsi Plenumunun qərarları, Ali Məhkəmə Plenumunun qərarları, təlimatlar və digər normativ aktlar dərc olunur.
- **Jurnalın məqsədi** hüquqi münasibətlərin və vətəndaş cəmiyyətinin təşəkkülü, hüquq və qanunçuluğun təbliğatıdır.

**«Qanun» jurnalına «Qaya», «Mətbuat yayımı», «Səma», MMC firmaları vasitəsilə abunə yazıla bilərsiniz.**

---

**Əlaqə telefonları:**
**«Qaya»: 441 35 33 4 «Səma»: 499 22 97,**
**«Mətbuat yayımı»: 440 39 83 MMC: 561 14 37**

**«Qanun» jurnalı** elmi tədqiqatların əsas müddəalarının nəşr edilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan nəşrlər siyahısına daxil edilmişdir.

# REDAKSİYA HEYƏTİ:

**Mirağa Cəfərquliyev**
AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsinin baş elmi işçisi, hüquq üzrə elmlər doktoru, professor

**Cəfərov Zahid**
Bakı Dövlət Universitetinin «Əmək və ekologiya hüququ» kafedrasının professoru, hüquq üzrə elmlər doktoru

**Dəmirçiyeva Məhəbbət**
Bakı Dövlət Universitetinin «Mülkü hüquq» kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor

**Kurennoy Aleksandr**
M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin «Əmək hüququ» kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor, RF-nin əməkdar hüquqşünası

**Qasımov Alış**
Bakı Dövlət Universitetinin «Əmək və ekologiya hüququ» kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor

**Qəfərov Midhəd**
Bakı Dövlət Universitetinin «Cinayət prosesi» kafedrası, hüquq üzrə elmlər doktoru, professor

**Qurbanov Habil**
AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun baş elmi işçisi, hüquq üzrə elmlər doktoru, professor, Avropa Humanitar Elmlər Akademiyasının həqiqi üzvü

**Məmmədov Zahid**
Azərbaycan Dövlət İqtisad Universitetinin Elm idarəsinin rəisi, iqtisad üzrə elmlər doktoru, professor

**Mövsümov Mövsüm**
Bakı Dövlət Universitetinin «Mülki proses və kommersiya hüququ» kafedrası, hüquq üzrə elmlər doktoru

**Rəhimov İlham**
Hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının əməkdar hüquqşünası

**Skaçkova Qalina**
Rusiya Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunun «Əmək hüququ və sosial təminat hüququ» sektorunun müdiri, hüquq üzrə elmlər doktoru, professor

**Tomaşevski Kiril**
«MİTSO» Beynəlxalq Universitetinin «Əmək və korporativ hüququ» kafedrasının müdiri, «Əmək və sosial hüquq» jurnalının baş redaktoru, hüquq üzrə elmlər doktoru, professor

**Zahidov Bəhram**
Hüquq üzrə elmlər doktoru, professor, Nyu-York Elmlər Akademiyasının üzvü

**İmanlı Məhəmməd**
Hüquq üzrə elmlər doktoru, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun «Cinayət hüququ və cinayət prosesi» şöbəsinin baş elmi işçisi

**Əsgərov Aqil İltifat oğlu,**
hüquqşünas

UOT 34:343

# CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA ZƏRƏRÇƏKMİŞ ŞƏXSİN ZƏRƏRİNİN KOMPENSASİYASI PROBLEMLƏRİ

***Açar sözlər:*** *zərərçəkmiş şəxs, zərərin ödənilməsi, zərərin (xəsarətin, itkinin) ödənilməsi, kompensasiya.*

***Ключевые слова:*** *потерпевший, возмещение ущерба, возмещение ущерба (травм, убытков), компенсация.*

***Keywords:*** *victim, compensating victim of a crime, reparation of damages (injuries, losses), compensation.*

Hüquq ədəbiyyatında şübhəli və ya təqsirləndirilən şəxsin yeri və hüquqları lazımı qədər araşdırılmasına baxmayaraq, zərərçəkmişin hüquqi vəziyyəti bağlı məsələlərə isə eyni ölçüdə diqqət ayrılmamışdır. Klassik cinayət hüququnda cinayətkar-dövlət əlaqəsi ətraflı şəkildə analiz edilmiş lakin, dövlətlə zərərçəkmiş arasında yarana biləcək münasibətlərə isə laqeyd yanaşılmışdır. Cəza hüququnda hər cinayətin təbii və məcburi zərərçəkəninin dövlət olduğu qəbul edilərək cinayətkar cəzalandırıldıqda ədalətin yerini tapdığı hesab edilmiş, zərərçəkmişin məruz qaldığı zərərə görə dövlətlə deyil, cinayətkarla hüquq münasibətlərinin mövcud olacağı qəbul edilmişdir. Bu yanaşma artıq müasir dövrdə artıq aşınmışdır. Beynəlxalq təşkilatlar tərəfindən zərərçəkmiş şəxsin cinayət prosesində aktiv iştirakının təmin edilməsi, ona vurulmuş zərərin kompensasiyası ilə əlaqədar tövsiyələr hazırlanmışdır.

Hüququn müxtəlif sahələrinə dair nəzəri araşdırmalarda ictimai təhlükəli əməlin nəticəsində zərərin vurulduğu şəxs bəzən cinayətin qurbanı, bəzən isə zərərçəkmiş şəxs anlayışı altında ifadə olunur. Kriminologiyada bəzən bu anlayışlar sinonim kimi qəbul edilir. Cinayətin qurbanı anlayışı viktimologiyada dar və geniş mənalarda işlədilir. Dar mənada cinayətin qurbanı cinayətdən birbaşa və bilavasitə zərər çəkmiş şəxsdirsə, geniş mənada cinayətin qurbanı cinayətdən birbaşa və bilavasitə zərər çəkmiş şəxsin özü ilə yanaşı, onun yaxınları, cinayətdən dolayısı ilə və ya bilavasitə zərər çəkmiş digər şəxslər də başa düşülür [8, s. 12].

R.Konev qeyd edir ki, cinayətin qurbanı anlayışı zərər çəkmiş şəxs anlayışından daha geniş anlayışdır, çünki maddi hüquqi anlayış kimi zərər çəkmiş şəxs anlayışı (cinayətin qurbanı anlayışından fərqli olaraq), zərər çəkmiş şəxsin cinayətdən dolayı yolla və ya bilavasitə ziyan çəkmiş yaxınlarını və qohumlarını əhatə etmir [15, s. 23].

A.Polubinski göstərir ki, bəzi müəlliflərin fikrincə, qanunverici öz başlıca diqqətini həmişə cinayətkara, onun hüquqazidd hərəkətlərinə yönəltmiş və beləliklə də cinayətin qurbanının cinayətin genezisində rolu minimuma endirilmiş, habelə hüquqi termin kimi də təsbit edilməmişdir. Onun fikrincə, cinayət əməlinin doğru-dürüst qiymətləndirilməsi üçün hökmən cinayət qanunvericiliyinin mətnində zərərçəkmiş şəxs anlayışı təsbit edilməli və hüquq münasibətlərinin subyekti kimi ayrıca öyrənilməlidir [6, s. 23].

F.M.Abbasova isə şəxsin cinayət mühakimə icraatında zərər çəkmiş şəxs qismində çıxış

etməsi üçün müvafiq hüquqi və faktiki əsasların məcmusunun mövcudluğunun tələb olunduğunu vurğulayır. Onun fikrincə, faktiki əsas cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində fiziki şəxsə birbaşa mənəvi, fiziki və ya maddi, hüquqi şəxsə isə mənəvi və ya maddi ziyan vurulmasına kifayət qədər əsasların olmasıdır. Şəxsin zərər çəkmiş qismində çıxış etməsinin hüquqi əsası isə cinayət təqibi orqanının müvafiq səlahiyyətə malik olan vəzifəli şəxsi, yəni prokuror, müstəntiq və ya təhqiqatçı tərəfindən (məhkəmə icraatı zamanı isə məhkəmə tərəfindən) müvafiq prosessual qərarın (zərər çəkmiş şəxs qismində tanınma haqqında qərarın) çıxarılmasıdır [4, s. 196].

İ.Ağayev zərər çəkmiş şəxsi və cinayətin predmetini cinayətin obyektinin fakültativ əlamətlərinə aid edərək qeyd edir: "Bir çox cinayətlərdə şəxsiyyətə fiziki və ya mənəvi zərər vurulur. Cinayət-prosessual qanunvericiliyinə görə belə şəxs zərərçəkmiş şəxs adlanır. Bu termin cinayət hüququnda da işlədilir. Lakin bu anlayışı heç cür cinayətin predmeti ilə qarışdırmaq olmaz. Cinayət hüququnda zərərçəkmiş şəxs elə şəxsdir ki, ona qəsd etmə yolu ilə cinayətin obyektinə zərər vurulur. Başqa sözlə zərərçəkmiş şəxsin anlayışı cinayət-hüquqi və cinayət-prosessual hüquqi baxımdan eyni anlayışlar deyil. Məsələn, konkret bir şəxsin öldürüldüyü halda cinayət-prosessual baxımdan zərərçəkmiş şəxslər öldürülənin doğmaları və yaxın qohumları, cinayət-hüquqi baxımdan həmin şəxsin özü olacaq" [5, s. 75].

*"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 12.2, 87.2 və 106.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair"* Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 15 aprel 2014-cü il tarixli Qərarının müəyyən etdi hissəsində qeyd edilir ki, Şəki Ağır Cinayətlər Məhkəməsinin icraatında olan Y.Hüseynin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – CM) 222.2 və 222.3-cü maddələri ilə təqsirləndirilməsi barədə cinayət işi üzrə ibtidai istintaq orqanının 30 avqust 2013-cü il tarixli qərarına əsasən mərhum İ.İsayev ümumi mənada zərər çəkmiş şəxs kimi qəbul olunaraq arvadı Z.İsayeva isə zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış və şahid kimi dindirilmişdir. Məhkəmənin hazırlıq iclasında Z.İsayeva onun zərər çəkmiş şəxsin hüquqi varisi statusuna xitam verilməsi, zərər çəkmiş şəxs qismində tanınması barədə vəsatətlə məhkəməyə müraciət etmişdir. Vəsatət onunla əsaslandırılmışdır ki, CPM-in 87.1-ci maddəsinə əsasən cinayət hadisəsi nəticəsində əri İ.İsayevin ölümü ilə ona birbaşa mənəvi və fiziki ziyan dəymişdir. Bu səbəbdən Z.İsayeva prosessual qaydada zərər çəkmiş şəxs kimi tanınmalı olduğu halda, zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınmışdır. Bununla da o, CPM-in 106.6.1-ci maddəsində göstərilən şübhəli və ya təqsirləndirilən şəxslə barışmaq hüququndan istifadə edə bilməmişdir [3].

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 15 aprel 2014-cü il tarixli Qərarında bir çox sual öz cavabını tapmışdır. Lakin Qərarda Z.İsayevanın zərər çəkmiş şəxs qismində tanınması barədə vəsatətində qeyd olunan əsaslandırmaya münasibət bildirilməmişdir. Z.İsayevanın vəsatətindəki əsaslandırmaya görə Z.İsayeva ona görə zərərçəkmiş şəxs qismində tanınmalı idi ki, cinayət hadisəsi nəticəsində əri İ.İsayevin ölümü ilə ona birbaşa mənəvi və fiziki ziyan dəymişdir. Bizə görə bu məsələyə də münasibət bildirilməli idi. Ona görə ki, əksər hüquq ədəbiyyatında maddi və ya prosessual mənada zərərçəkmiş şəxs anlayışının təhlili aparılır, lakin həm cinayət, həm də prosessual mənada zərərçəkmiş şəxs anlayışı üçün mühüm olan faktın, yəni birbaşa və ya dolayı vurulmuş zərərlərin fərqləndirilməsi aparılmamış və ya onların anlayışlarına dair təkliflər verilməmişdir. AR CPM-in 87.1-ci maddəsinə əsasən, cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində fiziki şəxsə birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmuş şəxslər zərərçəkmiş şəxs qismində tanına bilər. Göründüyü kimi "birbaşa ziyan

nədir ?" sualına cavab verilsə, müvafiq olaraq "zərərçəkmiş şəxs kimdir?" sualına cavab almış olarıq və ya "dolayı ziyan nədir?" sualına cavab verilsə, müvafiq olaraq "kimlər zərərçəkmiş şəxs deyil?" (prosessual mənada) sualına da cavab almış olarıq. Məsələn analoji yanaşmanı AR CPM-in "Mülki iddia vermək hüququ olan şəxslər" adlanan 181-ci maddəsində müşahidə edə bilərik. Həmin müddəa ilə, bilavasitə cinayətlə vurulmuş ziyan və onun törədilməsi ilə əlaqədar vurulmuş ziyan fərqləndirilmiş və yalnız həmin ziyanların vurulduğu fiziki və ya hüquqi şəxslərin mülki iddiaçı kimi tanınmalı olduğu təsbit edilmişdir. (Bu maddənin 2-ci və 3-cü bəndləri mülki iddianın predmetini müəyyən edir ki, bu da maddənin adı ilə düz gəlmir. Həmçinin mülki iddianın predmetinin mülki və ya digər qanunlar ilə müəyyən edildiyini nəzərə alsaq, yarana biləcək kolliziyanın qarşısını almaq üçün həmin bəndlərin çıxarılmasını doğru hesab edirik.) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 15 aprel 2014-cü il tarixli Qərarında aşağıdakılar qeyd edilmişdir.

AR CPM-in 119.4-cü maddəsinə "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 11 dekabr tarixli Qanunu ilə dəyişikliklər edilmişdir. (AR CPM-in 119.4-cü maddəsinin əvvəlki redaksiyasına görə, "hadisə nəticəsində ölmüş şəxsin yaxın qohumu onun hüquqi varisi olmaq istəyirsə, özünün zərərçəkmiş şəxs qismində tanınmasını tələb edə bilər"). Həmin maddənin birinci cümləsi "ölmüş təqsirləndirilən (şübhəli) şəxsin və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməl törətmiş, lakin təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüş şəxsin, habelə hadisə nəticəsində ölmüş zərər çəkmiş şəxsin yaxın qohumu özünün hüquqi varis qismində tanınmasını tələb edə bilər" kimi verilmişdir [1]. Həmin dəyişikliklərdən sonra bu norma ilə CPM-in 12.2, 87.2 və 106.1-ci maddələri arasında uyğunsuzluq aradan qaldırılmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etməyi zəruri hesab edir ki, ölmüş zərərçəkmiş şəxsin hüquqi varisinin cinayət prosesində iştirak etməsi üçün onun ölümünün səbəbinin əhəmiyyəti yoxdur. Şəxs bilavasitə cinayət hadisəsi ilə əlaqədar, yaxud cinayət hadisəsindən sonra xəstəlik və s. nəticəsində öldükdə, habelə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 41-ci maddəsində nəzərdə tutulmuş əsaslarla ölmüş elan edildikdə, onun hüquqi varisinin cinayət prosesində iştirak etməsi mümkündür. Ona görə də, cinayət təqibi istənilən növdə (ictimai, ictimai-xüsusi, xüsusi ittiham qaydasında) həyata keçirilərkən ölmüş zərər çəkmiş şəxsin hüquqi varisinin cinayət prosesində iştirakı mümkündür. Cinayətdən zərər çəkmiş şəxs vəfat etdikdə onun bir qayda olaraq, bir neçə yaxın qohumu olur ki, onlara da həmin cinayət nəticəsində maddi-mənəvi ziyan dəymiş olur və onların bir neçəsinin və ya hamısının hüquqi varis kimi tanınması üçün müraciət etmək və tanınmaq hüququ vardır. Həmin yaxın qohumlardan birinin zərər çəkmiş şəxs qismində tanınması digərlərinin bu hüquqdan istifadə etmək və müraciət etmək hüququnu məhdudlaşdırardı.

Qərarda qeyd olunur ki, cinayət hüququnda zərərçəkmiş şəxs dedikdə, cinayət qanunu ilə qorunan ictimai münasibətlərin subyekti qismində çıxış edən və cinayət qanunu ilə nəzərdə tutulan fiziki, əmlak, mənəvi və digər ziyan vurulmuş şəxs başa düşülür. Cinayət-prosessual hüququnda isə zərərçəkmiş şəxs dedikdə, cinayət əməli nəticəsində ziyan vurulduğu **ehtimal olunan** proses iştirakçısı nəzərdə tutulur.

Bizə görə, cinayət-prosessual hüquqda zərərçəkmiş şəxsə, "cinayət əməli nəticəsində ziyan vurulduğu **ehtimal olunan** proses iştirakçısı" kimi tərif verilməməlidir. Yəqin edirik ki, belə nəticəyə təqsirsizlik prezumpsiyasına görə gəlmişlər. Hesab edirik ki, zərərçəkmiş şəxs qismində tanınması üçün cinayət hadisəsinin mövcudluğunun və vurulmuş zərərin cinayətlə səbəbli əlaqəsinin sübut edilməsi yetərlidir. Təqsirsizlik prezumpsiyasına əsasən

"zərərçəkmiş şəxs qismində tanınma haqqında" qərarın ehtimali olması nəticəsinə gəlmək düzgün deyil. Bu ən azından həmin prezumpsiyanın mahiyyətinə də uyğun deyil. Məsələn, cinayət işi üzrə təqsirləndirilən şəxs məhkəmədə bəraət ala bilər, bu zaman zərərçəkmiş şəxs qismində tanınmış şəxsin statusuna xitam verilmədən, cinayət işi cinayətkarın məsuliyyətə cəlb edilməsi üçün yenidən istintaq orqanına qaytarılmalıdır.

Avropa Şurasının qəbul etdiyi qərar və tövsiyələrlə yanaşı, BMT tərəfindən cinayətin qurbanları ilə bağlı müxtəlif müddəalar həm bu barədə qəbul edilmiş ayrıca qərarlarda, həm də digər məsələlərlə bağlı qəbul edilmiş qərarlarda öz əksini tapmışdır. Belə sənədlərə misal olaraq "Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" BMT-nin Baş Assambleyası tərəfindən 40/34 saylı qərarla təsdiq edilmiş və 1985-ci il noyabrın 29-da qəbul edilmiş Bəyannaməni, 21 iyul 2004-cü il tarixli, 2004/27 saylı qərarla təsdiq edilmiş "Cinayətlərin qurbanı və şahidi olmuş uşaqlar üçün ədalət mühakiməsinə dair Rəhbər Prinsipləri" göstərmək olar [9, s. 98].

"Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" Bəyannamə iki əsas hissədən ("Cinayət qurbanları" adlanan A hissəsi və "Hakimiyyətdən sui-istifadə qurbanları" adlanan B hissəsi) və bu hissələrə aid olan ümumilikdə 21 bənddən ibarətdir. Bəyannamənin 1-ci bəndin görə, "qurban" dedikdə, üzv-dövlətlərin hakimiyyətdən cinayətkarcasına sui-istifadəni qadağan edən qanunları da daxil olmaqla qüvvədə olan cinayət qanunlarını pozan hərəkət və ya hərəkətsizlik nəticəsində fərdi və ya kollektiv şəkildə ziyan vurulmuş, o cümlədən bədən xəsarəti, mənəvi zərər, emosional iztirablar yetirilmiş, maddi ziyan vurulmuş, yaxud əsas hüquqları əhəmiyyətli dərəcədə pozulmuş şəxslər başa düşülür. Bu Bəyannaməyə görə, bu və ya digər şəxs hüquq pozucusunun müəyyən edilib-edilməməsindən, həbs edilib-edilməməsindən, məhkəməyə verilib-verilməməsindən, yaxud məhkum edilib-edilməməsindən, eləcə də hüquq pozucusu və qurban arasında qohumluq münasibətlərinin olub-olmamasından asılı olmayaraq, qurban hesab edilə bilər. "Qurban" termini müvafiq hallarda təkcə bilavasitə qurbanın özünü deyil, hətta bilavasitə qurbanın yaxın qohumlarını, yaxud onun himayəsində olan şəxsləri, o cümlədən çətin vəziyyətə düşmüş qurbanlara yardım göstərən, yaxud viktimizasiyanın qarşısını almaq istəyən şəxsləri əhatə edə bilir. Bəyannamədə təsbit edilmiş müddəalar irqindən, dərisinin rəngindən, cinsindən, yaşından, dilindən, dinindən, milliyyətindən, siyasi və digər baxışlarından, mədəni görüş və təcrübələrindən, əmlak vəziyyətindən, hansı zümrəyə aid olmasından və ailə vəziyyətindən, etnik və ya sosial mənşəyindən, eləcə də məşğulluğundan asılı olmayaraq, bütün şəxslərə tətbiq edilmək üçün nəzərdə tutulmuşdur [9, s. 99].

AR CPM-in 87-ci maddəsində zərərçəkmiş şəxsə verilən anlayış prosessualdan, daha çox cinayət hüquqi anlayışdır. Bizdəki "zərərçəkmiş şəxs" anlayışı, beynəlxalq sənədlərdəki "qurban" anlayışından daha dar mənalıdır. Zərərçəkmiş şəxs anlayışına təkcə cinayət nəticəsində birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmuş şəxs daxildir. Beynəlxalq sənədlərdəki "qurban" anlayışı bilavasitə qurbanın özünü, habelə yaxın qohumlarını, yaxud onun himayəsində olan şəxsləri əhatə edir. Bizdə hazırkı qaydaya görə yaxın qohumlar cinayət prosesinə zərərçəkmiş şəxs öldüyü halda "hüquqi varis" qismində qoşula bilərlər.

Zərər çəkmiş şəxsin hüquqi statusu ilə bağlı müddəaları özündə əks etdirən ən mühüm beynəlxalq sənədlərdən biri də 1950-ci il 4 noyabr tarixində Roma şəhərində qəbul edilmiş "İnsan və vətəndaş əsas hüquq və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasıdır. Konvensiyanın 34-cü maddəsi çərçivəsində "qurban" sözü iddia olunan hüquq pozuntusunun birbaşa və ya dolayı təsirinə məruz qalan şəxsi və ya şəxsləri bildirir. Beləliklə, 34-cü

maddə yalnız iddia olunan pozuntunun birbaşa qurban və ya qurbanlarına deyil, həmçinin pozuntunun zərər verə biləcəyi, yaxud pozuntunun aradan qaldırılmasında qanuni və şəxsi marağı olan dolayı qurbanlara aiddir (Vallianatos və başqaları Yunanıstana qarşı). Məhkəmə ərizəçinin ölkədaxili məhkəmə icraatının tərəfi olduğu faktını nəzərə almalı olsa da, "qurban" anlayışı iddianın qaldırılması üçün maraq və ya qabiliyyətə aid ölkədaxili qaydalardan asılı olmadan və müstəqil şəkildə təfsir edilir (Aksu Türkiyəyə qarşı;). "Qurban» terminin təfsiri müasir cəmiyyət kontekstində inkişafa tabedir və ifrat formallığa yol verilmədən tətbiq edilməlidir (Qorraiz Lizarraqa və başqaları İspaniyaya qarşı). Məhkəmə qurban statusu məsələsinin işin mahiyyəti ilə əlaqələndirilə biləcəyini müəyyən etmişdir [22, s. 10].

Birbaşa qurban anlayışı ilə AİHM-nin mövqeyinə nəzər salaq. 34-cü Maddəyə uyğun olaraq ərizə verə bilmək üçün ərizəçi şikayət edilən tədbirin «birbaşa təsirinə məruz» qaldığını nümayiş etdirə bilməlidir (Berden Birləşmiş Krallığa qarşı). Dolayı qurbanlara münasibətdə isə AİHM aşağıdakıları göstərir. Ərizəçi və birbaşa zərərçəkmiş arasında xüsusi və ya şəxsi əlaqə olduqda Məhkəmə dolayı zərərçəkmiş sayılan şəxsin fərdi şikayətini qəbul edə bilər. Müəyyən konkret vəziyyətlərdə, Məhkəmə ərizəçinin potensial qurban ola biləcəyini qəbul etmişdir. Lakin belə vəziyyətin qurbanı olduğunu iddia edə bilmək üçün ərizəçi ona şəxsən mənfi təsir edəcək pozuntunun başvermə ehtimalı barədə ağlabatan və inandırıcı dəlil təqdim etməlidir (Senator Lines GmbH Avropa İttifaqına üzv olan on beş dövlətə qarşı). İddia olunan pozuntuya görə qismən məsuliyyət daşıdığı halda ərizəçi qurban olduğunu iddia edə bilməz (Paşa və Erkan Erol Türkiyəyə qarşı) [22, s. 10].

Cinayət-prosessual hüquqda zərərçəkmiş şəxs anlayışının əsas meyarı zərərdir. L.V.Brusnitsi göstərir ki, cinayət nəticəsində və ya anlaqsız şəxsin cinayət əməli ilə fiziki, maddi və mənəvi ziyan vurulmuş, habelə göstərilən əməllərə hazırlıq və ya sui-qəsdlə (cəhdlə) belə zərər vurulması təhlükəsi yaradılmış fiziki və hüquqi şəxslər zərərçəkmiş şəxs kimi tanınır. Yəni zərər cinayəti anlaqsız vəziyyətdə törətmiş şəxsin əməli ilə vurulsa belə, şəxsə zərər dəydiyi üçün o, zərərçəkmiş şəxs qismində tanınacaq. Onun təklif etdiyi anlayışın bir sıra mütərəqqi cəhətləri var. Belə ki, o həm hüquqi, həm də fiziki şəxslərin zərərçəkmiş şəxs kimi tanına bilməsini mümkün hesab etməklə yanaşı, eyni zamanda başa çatmamış cinayətlər nəticəsində zərər vurulmuş şəxsin də zərərçəkmiş şəxs olaraq tanına bilməsi fikrini irəli sürmüşdür [8, s. 204].

Cinayət prosesi üzrə nəzəri ədəbiyyatda başa çatmayan cinayətlərin, yəni cinayətə hazırlıq və cinayətə cəhd hallarında şəxsin zərərçəkmiş şəxs qismində tanınması ilə bağlı müxtəlif mövqelər mövcuddur. A.Ratinov və R.D.Raxunov başa çatmayan cinayət nəticəsində şəxsə zərər dəymədikdə onun zərərçəkmiş şəxs kimi tanınmasının əleyhinədirlər. Onlar belə hesab edirlər ki, cinayət nəticəsində şəxsə faktiki fiziki, mənəvi və ya əmlak zərəri dəyməzsə, onu zərərçəkmiş şəxs qismində tanımaq lazım deyil. V.M.Savitskin isə göstərir ki, cinayətə hazırlıq və sui-qəsd (cinayətə cəhd) cinayətlərində zərər çəkmiş şəxsin tanınması üçün heç bir əsas olmur, çünki bu hallarda şəxsə cinayət nəticəsində heç bir ziyan dəymir [7, s. 17; 31]. Bizə görə, istənilən cinayətin nəticəsi var və əgər cinayətə hazırlıq və ya cəhd cinayətləri nəticəsində şəxsə mənəvi, fiziki və ya əmlak zərəri vurulmuşdursa, o zərərçəkmiş kimi tanınmalıdır. Lakin istənilən cinayətə hazırlıq nəticəsində vurulan zərər, şəxsin zərər çəkmiş şəxs kimi tanınması üçün əsas ola bilməz. Məsələn, AR CM-nin 28.2-ci maddəsində əsasən yalnız ağır və ya xüsusilə ağır cinayətlərə hazırlıq cinayət məsuliyyətinə səbəb olur. Bu zaman şəxsə zərər vurulmuşdursa, əməl cinayət hesab edilmədiyi üçün, o cinayət-prosessual anlamda zərərçəkmiş şəxs kimi tanınmayacaq və ona vurulmuş zərər mülki prosessu-

al qanunvericiliyin tələbləri üzrə onun qaldırdığı iddia nəticəsində ödəniləcək. AR Ali Məhkəməsi Plenumunun 27 dekabr 1996-cı il tarixli "Cinayət mühakimə icraatında zərər çəkmiş şəxsin iştirakını tənzimləyən qanunların tətbiqi haqqında" Qərarının 2-ci bəndində göstərilmişdir ki, cinayətə hazırlıq, habelə cinayətə sui-qəsd işləri üzrə də mənəvi, fiziki və ya əmlak zərəri dəymiş şəxslər zərər çəkmiş şəxs kimi tanınmalıdırlar.

Hesab edirik ki, cinayət mühakimə icraatı zamanı zərər müəyyənləşdirilərkən AR Mülki Məcəlləsində zərərlə bağlı təsbit edilmiş normalara müraciət edilməlidir. Ona görə ki, AR CPM-in 7.0.36-cı maddəsində zərərə verilmiş anlayış ilə AR MM-in 21.2-ci maddəsində zərərə verilmiş anlayışın müqayisəsi birincinin əksik verildiyini göstərir. AR MM-in 21.2-ci maddəsinə görə, zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür [2]. Belə ki, AR CPM-in 179.3-cü maddəsinə əsasən, mülki iddia üzrə qərar iddianın predmetindən asılı olaraq mülki qanunvericiliyin və digər qanunvericilik sahələrinin normalarına uyğun qəbul edilir. Habelə, AR CPM-in 181.2 və 181.3-cü maddələrinin də AR MM-nə uyğunlaşdırıldığını demək olar.

**I. Cinayət qurbanlarının zərərlərinin dövlət tərəfindən kompensasiyası problemi**

Cinayət qurbanlarının hüquqlarının müdafiəsi, cinayət nəticəsində onlara dəymiş ziyanın ödənilməsi çağdaş hüquq ədəbiyyatında əsas müzakirə mövzularından biridir. Bəzi dövlətlərdə cinayət qurbanlarına vurulan zərərin ödənilməsi zərər çəkmiş şəxsin mülki iddia verməsindən asılı olmayaraq təmin olunmuş və bütün üçün birbaşa və dolayı mexanizmlər hazırlanmışdır.

Xarici hüquq ədəbiyyatında zərər çəkmiş şəxsin hüquqlarının qorunmasının birbaşa və dolayı üsulları fərqləndirilir. Birbaşa üsullara "kompensasiyanı dövlətin ödəməsi", "kompensasiyanı özəl sığorta şirkətlərinin ödəməsi" və "kompensasiyanın sosial müdafiə sistemi içində ödənməsi" kimi təsnif olunur. Birbaşa üsullardan fərqli olaraq, zərər çəkmiş şəxsin zərərinin kompensasiya edilməsini məqsəd kimi hədəfləmədiyi halda onu dövlət (cəmiyyət) içində tək buraxmayan siyasi partiyalar, diaspor təşkilatları, ombudsman kimi təşkilatlar zərərçəkmiş şəxsi qoruyan dolayı mexanizmlərə aid edilmişdir [11, s. 80]. Müasirimizdə əsas müzakirə mövzularından biri cinayətin qurbanlarına və ya cinayətdən zərər görən şəxslərə dövlətin kompensasiya ödəməli olub-olmaması və ya hansı hallarda ödəməli olmasıdır.

Zərər çəkmiş şəxsin ziyanının dövlət tərəfindən ödənilməsinin əsas tərəfdarı XIX əsrdə hüquqi pozitivizm, liberalizm məktəbinin nümayəndəsi Ceremi Bentam olmuşdur. Zərərin ödənilməsinin zərər çəkmiş şəxsi cəza qədər razı salacağını müdafiə edən Bentam zərərçəkmiş şəxsə kompensasiyanın ödənilməsi üçün bütün məhkumların əmlaklarından və məhkumların işləyib qazanacaqları vəsaitlərdən fond yaradılmasını, fond yaradıla bilmədikdə isə kompensasiya üçün dövlət büdcəsinə və ya sığorta təşkilatlarına müraciət olunmasını təklif edirdi. Müasirimizdə isə, kompensasiyanın dövlət tərəfindən ödənilməsi gərəkdiyini müdafiə edən İngiltərədə cəza hüququ üzrə islahatçı Sara Marqeri Fry olmuşdur [11, s. 80].

Liberalistlərə görə dövlətin vətəndaşlarını qorumaq, onların sabitlik və sülh içində yaşamasını təmin etmək vəzifəsi vardır. Hətta dövlətin ən əsas və əsl funksiyası budur. Dövlət bu vəzifəsini lazımi səviyyədə yerinə yetirmədiyinə görə şəxsə qarşı cinayət törədilmiş və o, zərərə məruz qalmışdır. Ona görə də, dövlətin laqeydliyi səbəbindən zərər çəkmiş şəxsin məruz qaldığı zərəri dövlətin ödəməsi gərəkdir. Dövlət qisas almağı qadağan etdiyinə görə, zərər çəkmiş şəxsi qorumalı və kompensasiyanı ödəməlidir [12].

Dövlətin qismən (hissəvi) məsuliyyətini qəbul edən nümayəndələr də vardır. Onlar xüsusilə, cinayətkarın müəyyən edilməməsi və

ya cinayət işinin məhkəməyə verilə bilmədiyi (məsələn, şəxsin axtarışda olması, müəyyən olmaması və s.) hallarda, cinayətkarın habelə maddi imkanı olmadıqda da zərərin dövlət tərəfindən kompensasiya edilməsinin vacibliyini müdafiə edirlər. Ona görə ki, belə hallarda kompensasiyanın dövlət tərəfindən ödənilməsi ədalətin ehtiyacından irəli gəlir. Əgər məhkum şərti azadlığa buraxılmışdırsa və ya əhv edildikdən sonra məhkumların təkrar cinayət törətmələrindən vurulmuş zərərləri dövlət ödəməlidir.

Zərərçəkmiş şəxsə vurulmuş zərərin ödənilməsi ilə bağlı müxtəlif sistemlər mövcuddur. Pozitiv məktəb cinayət nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini ədalət mühakiməsinin prinsiplərindən biri hesab etmişdir. E.Ferrinin fikrincə, təzminat cinayətin qarşısının alınması və cinayətkarı islah etmək baxımından təsirlidir. Kompensasiya sadəcə zərərçəkmiş şəxsin mənafeyi ilə bağlı məsələ deyil. Kompensasiya zərərçəkmiş şəxsin birbaşa mənafeyini, cəmiyyətin isə dolayı mənafeyini ifadə edir. R.Qarafalo hesab edir ki, cinayət nəticəsində vurulmuş zərərin ödənilməsi tələb ediləcək bir hüquq deyil, cinayəti törətmiş şəxsin heç bir halda azad ola bilməyəcəyi vəzifədir [13, s. 249].

BMT-nin Baş Assambleyası tərəfindən 29 noyabr 1985-ci ildə qəbul edilmiş "Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" Bəyannamənin 4-cü bəndində göstərilmişdir ki, qurbanlara mərhəmət göstərmək və ləyaqətlərinə hörmətlə yanaşmaq lazımdır. Onlara ədalət mühakiməsinin vasitələrindən istifadə etmək və milli qanunvericiliyə əsasən dəymiş zərərin tezliklə ödənilməsini təmin etmək üçün şərait yaradılmalıdır.

"Cinayəti qurbanlarına kompensasiya verilməsi haqqında" 28 dekabr 1977-ci il tarixli, (77)27 saylı Qərara görə cinayət nəticəsində zərər vurulmuş şəxs heç bir təzminat ala bilmədikdə, dövlət belə zərərçəkmiş və cinayət nəticəsində ölən şəxsin yaxın qohumlarını da ən azından təzminat ilə təmin etməlidir [20, s. 1].

"Cinayət hüququ və cinayət prosesi çərçivəsində zərərçəkmiş şəxsin vəziyyəti haqqında" 28 iyun 1985-ci il tarixli, R (85) 11 saylı Tövsiyənin preambula hissəsində qeyd edilir: cinayət ədliyyə sisteminin məqsədləri ənənəvi olaraq hüquq pozuntusu törədən şəxslə dövlət arasındakı münasibətlər baxımından ifadə olunmuşdur; sistemin belə fəaliyyəti zərərçəkmiş şəxsin cinayətin törədilməsi nəticəsində yaranan problemlərini azaltmaq əvəzinə, belə problemləri daha da artırmağa xidmət etmişdir; zərərçəkmiş şəxsin maraqlarının müdafiəsi və nəzərə alınması ədalət mühakiməsinin fundamental funksiyası olmalıdır; zərərçəkmiş şəxsin cinayət mühakiməsində inamının gücləndirilməsi və onun xüsusən də şahid kimi əməkdaşlığa cəlb edilməsinin mümkünlüyü; bu məqsədlə zərərçəkmiş şəxsə vurulan fiziki, maddi, psixoloji və sosial ziyana və belə zərərin təmini ilə bağlı onun tələbatlarına diqqət yetirilməlidir. Dövlətlərə zərərçəkmiş şəxsin hüquqi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı aşağıdakı tövsiyələr edilmişdir; polis işçilərinə cinayətin qurbanları ilə xüsusi davranış qaydası ilə bağlı təlim keçilməli; cinayət prosesi orqanları zərərçəkmiş şəxsi praktiki və hüquqi yardım, eyni zamanda cinayəti törədən şəxsdən və dövlətdən kompensasiya almaq hüququ barədə xəbərdar etməli; cinayəti törədən şəxsin cinayət təqibinə məruz qalıb-qalmaması barədə qərarın qəbul edilməsində diskresion səlahiyyətə malik cinayət prosesini həyata keçirən orqan belə qərarı zərərçəkmiş şəxsə dəyən zərərin kompensasiyası məsələsi, habelə cinayəti törədən şəxs tərəfindən zərərin aradan qaldırılmasına yönəldilən cəhdlər nəzərə alınmadan qəbul etməməli; zərərçəkmiş şəxsə əksini bəyan etmədikcə, cinayət prosesinin yekununda qəbul edilən qərar haqqında məlumat verilməli; zərərçəkmiş şəxsə cinayəti törədən şəxsdən tutularaq kompensasiya kimi verilməli olan pul məbləği cinayəti törədən şəxsin

ödəməli olduğu digər pul sanksiyaları üzərində üstünlüyə malikdir; zərərçəkmiş şəxs mütəşəkkil cinayətkarlıqla bağlı işlər üzrə və bu gərəkli olan digər hallarda cinayəti törədən şəxs tərəfindən qisas motivi ilə törədilə biləcək hərəkətlərdən müdafiə hüququna malik olmalıdır; dövlətlər mediasiya və barışıq institutlarının qanunvericilikdə təsbitini nəzərdən keçirməli, eyni zamanda zərərçəkmiş şəxsin hüquqi vəziyyətini müəyyən edən normaların səmərəliliyi ilə bağlı tədqiqatları həvəsləndirməlidir [21, s. 1-2].

Avropa Şurası 1983-cü ildə zərər çəkmiş şəxsin qorunmasının təmini sahəsində üzv ölkələr arasında daha sıx əməkdaşlığı və həmrəyliyi təmin etmək məqsədi ilə "Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında" Konvensiyanı hazırlayaraq beynəlxalq səviyyədə müqavilə ortaya qoymuşdur. Adı çəkilən konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu 17 mart 2000-ci il tarixdə qəbul edilmişdir [10]. Giriş və üç bölmədən ibarət olan konvensiya sadəcə zorakı cinayətləri əhatə edir. Konvensiyada xüsusilə, cinayəti törədən şəxsin məlum olmadığı və maddi gücü olmayan cinayətkarların vurduğu zərərləri ödəyə bilməsi halında bu zərərlərin dövlət tərəfindən ödənilməli olduğu qeyd olunur. Qəsdən sağlamlığa ağır zərər vurma və ya adam öldürmə cinayətlərinin qurbanlarına və ya zərər çəkmiş şəxs öldüyü halda onun yaxınlarına əgər kompensasiya tam ödənilməmişdirsə dövlət kompensasiyanı tam ödəməlidir. Kompensasiya cinayətin halları nəzərə alınmaqla ən pis halda zərər çəkmiş şəxsin qazanc itkilərini, dərman və xəstəxana xərclərini, dəfn (yas) xərclərini və yaxınlarının məişət, aliment itkilərini əhatə etməlidir. Kompensasiya proqramında zərərin ödənilməsi üçün daxil olan müraciətlərə vaxt təyin edilə bilər. Müraciət edənin maddi durumu nəzərə alınmaqla kompensasiya tələbi rədd edilə və ya qismən təmin edilə bilər. Konvensiyada əks olunmuş prinsiplərə aiddir: dövlətin kompensasiya öhdəliyi; kompensasiyanın minimal həddi və məbləği; kompensasiyanın ödənilməsi müddəti; təkrar kompensasiyanın yolverilməzliyi; kompensasiyanın dövlət tərəfindən alınması.

**II. Xarici dövlətlərdə zərərçəkmiş şəxsin zərərinin kompensasiyası təcrübəsi**

Müasir dövrdə cinayət nəticəsində vurulmuş zərərin aradan qaldırılması ilə əlaqədar müxtəlif institutlar yaradılmışdır. Onlardan ən başlıcası restitusiyadır. Restitusiya dedikdə, cinayət nəticəsinin ortadan qaldırılması və ya cinayətdən əvvəlki vəziyyətin bərpası, ələ keçirilmiş əmlakın geri qaytarılması, vurulmuş ziyanın, çəkilmiş xərclərin ödənilməsi, hüquqların bərpası və s. başa düşülür. Əgər əmlak məhv olmuşdursa, bərpası mümkün deyildirsə restitusiya mümkün olmayacaqdır. Habelə, cinayət nəticəsində qeyri-maddi zərər (yaxınlarının itirilməsi nəticəsində keçirilən iztirablar, sağlamlığın itirilməsi və ya əlil olma ilə nəticələnəndə keçirilən ağrı və əzablar) də vurulur ki, restitusiya belə zərərlərin ödənilməsi nəzərdə tutmur. Kompensasiya isə, cinayət nəticəsində vurulmuş həm maddi, həm də qeyri-maddi zərərlərin ödənilməsini və ya ortadan qaldırılmasını nəzərdə tutur. Artıq bir çox dövlətlərdə beynəlxalq hüququn tövsiyələrinə uyğun olaraq məhkəmədə cinayət işi ilə birgə cinayət nəticəsində vurulmuş zərərin ödənilməsi məsələsinin həlli də məcburi olmuş, habelə dövlətin kompensasiya öhdəliyi prinsipi qəbul edilmişdir. Həmin prinsipə əsasən, zorakı cinayət qurbanlarına və ya vəfat etmiş şəxslərin himayəsində olan şəxslərə zərərin əvəzinin ödənilməsi digər mənbələrdən mümkün olmadıqda, habelə cinayətkarın müəyyən edilməməsi, yaxud onun cəzalandırılmasının mümkün olmaması, maddi imkanının olmaması hallarında kompensasiya dövlətin hesabına aparılmalıdır.

Hazırda zərərçəkmiş şəxsin zərərinin kompensasiyası üçün müxtəlif üsullar tətbiq edilir:

1. Maliyyə qaynaqları cərimə və müsadirə edilmiş əmlaklar olan kompensasiya və kassa sistemi (Hollandiya, Norveç, İsveç, Böyük Britaniya, Danimarka);
2. Kompensasiya ödənildiyi halda cəza çəkməkdən azad olma və ya müddətinin azaldılması;

3. Kompensasiyanın ödənilməsinin yüngülləşdirici hal hesab edilməsi, cəzanın çəkilməsinin təxirə salınmasının kompensasiyanın ödənilməsi şərti ilə əlaqədar olması (İtaliya, İspaniya, Argentina, Meksika);

4. Ağır cinayətlərdə cinayətkarın zərəri ödəyə bilməyəcəyi məlum olduqda cərimənin, müsadirə edilən əmlakların zərərçəkmiş şəxsə verilməsi (İsveçrə, Skandinav ölkələri);

5. İştirakçılıqla törədilən cinayətlərdə iştirakçıların zərərin ödənilməsində müştərək öhdəliyinin olması (Fransa, Belçika və Finlandiya);

6. Cinayətkarın kompensasiyanı ödəmək imkanı yoxdursa zərərçəkmiş şəxsin kompensasiyanın digər tələblərə görə "təminatlı tələb" kimi üstün hesab edilməsi;

7. Məhkumun zərəri ödəməsi üçün məcburi işlədilməsi, cəzaçəkmə müəssisəsi emalatxanasındakı qazancının bir qisminin zərərin ödənilməsində istifadə edilməsi (Fransa, Danimarka) [ 14, s. 102].

Digər tərəfdən mülkiyyət əleyhinə cinayətlərdə dövlətin kompensasiya ödəməsi qəbul edilməmişdir. Ona görə ki, belə cinayətlərlə əlaqədar kompensasiya tələblərində sui-istifadə hallarının ayırd edilməsi çətin olmaqla, dövlətin üzərinə böyük maddi yük də düşəcəkdir [14, s. 102].

Avropa Şurasına üzv dövlətlərdən Fransada cinayət qurbanlarına müəyyən şərtlər daxilində kompensasiya ödəyən Zəmanət Fondu (Fonds de Garantie) yaradılmışdır. Bu Fond cinayət qurbanlarının zərərlərinin milli həmrəylik ilə kompensasiya edilməsini həyata keçirir. Zəmanət Fondu özü iki fonddan ibarətdir: FGAO və FGTİ. FGAO (Le Fonds de Garantie des Assurances obligatoires de dommages) yol-nəqliyyat hadisələri, texniki fəlakətlər, mədən fəaliyyəti və şirkətlərin məsuliyyətsizliyi nəticəsində vurulmuş zərərin ödənilməsi ilə məşğul olur. FGTİ terror və digər cinayətlərin qurbanlarının zərərlərini və müəyyən şərtlər olduqda nəqliyyat vasitələrinə dəyən zərəri kompensasiya edir [18, s. 48].

Fransada da prinsipcə zərərçəkmiş şəxsə kompensasiya cinayətkar tərəfindən ödənilməlidir. Lakin cinayətkarın ödəmək imkanı yoxdursa, ölmüşdürsə və ya müəyyən edilmədiyi hallarda zərərçəkmiş şəxslərə kompensasiya ödənilməsi Fransa Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuşdur. Fransada kompensasiya yalnız Fransa Cinayət-Prosessual Məcəlləsi ilə tənzim olunur. Kompensasiya üçün ayrıca qanun qəbul edilməmişdir. Kompensasiyanın ödənilməsi ilə bağlı qərar CİVİ tərəfindən qəbul edilir. Kompensasiya ilə bağlı qərar inzibati deyil, məhkəmə qərarı xarakteri daşıyır [18, s. 48].

Cinayət qurbanlarına kompensasiya "Cinayət qurbanlarının kompensasiyası üçün Komissiya" (CİVİ) (fran. Commission d'İndemnisation des Victimes d'İnfractions) tərəfindən qəbul edilən qərar əsasında, "Terror və digər cinayətlərin qurbanlarına zəmanət Fondu" (FGTİ) (fran. Fonds de garantie des victimes des actes de terrorisme et d'autres infractions) tərəfindən ödənilir. Bir də SARVİ (fran. Service d'Aide au Recouvrement des Victimes d'İnfrations) xidməti vardır ki, bu xidmət zərərçəkmiş şəxslərə məhkumdan kompensasiyanı almaqda kömək edir. SARVİ xidməti FGTİ tərəfindən idarə olunur (SARVİ FGTİ tərəfindən yaradılıb və ona daxildir) və CİVİ tərəfindən kompensasiya edilməyən az əhəmiyyətli zərərləri (məsələn, nəqliyyat vasitələrinin qəzası, ov qəzaları, ev heyvanlarının vurduğu ziyanlar, asbestə məruz qoyma) kompensasiya edir [23].

Fransada Böyük Britaniyadan fərqli olaraq təkcə zorakı cinayətlərin deyil, digər cinayət qurbanlarının da zərərləri kompensasiya edilir. Cinayətin qəsdən törədilib-törədilməməsindən asılı olmayaraq zərərçəkmiş şəxs ölərsə və ya daimi və ya müvəqqəti (ən azı 1 ay) işləyə bilməyəcəkdirsə kompensasiya ödənilməlidir. Fransa CPM-ində bəzi cinayətlər sadalanmışdır ki, həmin cinayətlərin qurbanlarına kompensasiya ödənilməsi üçün yuxarıda qeyd edilən iki nəticənin olmasına ehtiyac yoxdur. Belə cinayətlərə zorlama, 15 yaşına çatmayan uşaq-

ların cinsi toxunulmazlığı əleyhinə cinayətlər, köləlik, məcburi əmək və insan alveri daxildir.

Başlıca prinsiplərdən biri vurulmuş zərərin tam kompensasiya edilməsidir. Zorakı cinayət qurbanlarının zərərlərinin kompensasiyasına dair qərar məhkəmə-tibb ekspertizasının rəyi alındıqdan sonra verilə bilər. Kompensasiya cədvəl əsasında və ya zərərçəkmiş şəxs tərəfindən təqdim edilən sübutlar əsasında hesablanır [23, s. 24].

Fransaya qanuni yolla gələn əcnəbilər və ya turistlər və ya Avropa Şurasına üzv dövlətlərin vətəndaşları və ya "Zorakı cinayət qurbanlarının kompensasiyası haqqında" Avropa Konvensiyasının tərəfdar dövlətlərin vətəndaşları Fransada törədilmiş cinayətlərdə zərərçəkmiş şəxsdirlərsə kompensasiya ala bilərlər [23, s. 55]. Bəzi dövlətlərdə, məsələn, Almaniyada 1976-cı ildə qəbul edilmiş qanunla zorakı cinayətlərin zərər çəkmiş şəxslərinə kompensasiya ödənilməsi mümkündür. Bu qanundan əcnəbilər isə yalnız beynəlxalq hüquqdakı qarşılıqlılıq prinsipi əsasında istifadə edə bilərlər.

Böyük Britaniyada ilk dəfə 1964-cü ildə "Cinayət zərərlərinin kompensasiyası" cədvəli qəbul edilmişdir. Bu cədvəl əsasında "Criminal İnjuries Compensation Board" (CİCB) təşkilatı fəaliyyət göstərmişdir. 1996-cı ildə isə "Cinayət zərərlərinin kompensasiyası" Qanunu qəbul edilmiş və həmin qanunla "Criminal İnjuries Compensation Authority" (CİCA) təşkilatı yaradılmışdır. 2001, 2008 və 2012-ci illərdə yeni kompensasiya cədvəlləri təsdiq edilmişdir. [16] 2012-ci il "Cinayət zərərlərinin kompensasiyası" cədvəlində (bu cədvələ sonuncu dəfə 23 may 2019-cu ildə düzəliş qəbul edilmişdir) xəsarət növləri A və B qruplarına bölünmüş və xəsarətlərin ağırlığına görə dərəcələri müəyyən edilmişdir. A qrupuna daxil olan xəsarətlərin 20 dərəcəsi (level A1,A2,..,A20), B qrupuna daxil olan xəsarətlərin isə 15 dərəcəsi (level B1,B2,...,B15) qeyd edilmişdir. A qrupuna daxil plan xəsarətlər üçün kompensasiyanın ən aşağı məbləği 1000, ən yüksək məbləği 250000 funt sterlinqdir. B qrupuna daxil olan xəsarətlər üçün kompensasiyanın ən aşağı məbləği 1000, ən yüksək məbləği isə 44000 funt sterlinqdir. Məsələn, orta dərəcə üz yanığı A4 dərəcəsidirsə, ağır üz yanığı isə A10 dərəcəsi hesab edilir və cədvəl üzrə A4 üçün 2500, A10 üçün 16500 funt sterlinq kompensasiya nəzərdə tutulmuşdur. Cinsi əlaqə zamanı Hepatit B və ya Hepatit C ilə yoluxdurma, daimi əlillik yaratmışdırsa B9 dərəcəsi hesab edilir. Cədvəl üzrə B9 dərəcəsi üçün 11000 funt sterlinq nəzərə tutulmuşdur [19]. Kompensasiya ödənilməsi ilə əlaqədar müraciət üçün vəkilə ehtiyac yoxdur. Aşağıdakı zərərlər üçün kompensasiya tələblərinə baxılır:

1. zorakı cinayətlərdən irəli gələn fiziki və mənəvi zərərlər;
2. cinsi və ya fiziki istismar zərəri;
3. qazanc itkisinə görə (cinayətin birbaşa nəticəsi kimi tam və ya qismən əmək qabiliyyətinin itirilməsinə görə) zərəri;
4. xüsusi xərclərə görə zərəri; (Bunlar birbaşa hadisə ilə əlaqədar çəkilən müəyyən xərcləri əhatə edir. Xüsusi xərclərin kompensasiyasını qurbanın yalnız 28 həftədən çox müddətə işləmək iqtidarında olmadığı halda tələb oluna bilər.)
5. zorakı cinayət nəticəsində ölən şəxsə görə çəkilən iztiraba görə, valideynin qayğısının (xidmətinin) itirilməsinə və maliyyə asılılığına görə, dəfn xərclərinə görə zərərlər [17].

Kompensasiya cədvəli üzrə ödənişlər son çarə kimi nəzərdə tutulmuşdur. Cinayətin qurbanı başqa yerdən kompensasiya almaq imkanlarını istifadə etməlidir. Ondan hüququ yaranırsa sosial təminat müavinətini, sığorta ödənişlərini alması və ya cinayətkardan kompensasiya almaq üçün bütün lazımi addımları atması tələb olunur və CİCA tərəfindən bunun üçün sübutlar tələb edilə bilər. Qurbanın başqa mənbədən kompensasiya ala bilməyəcəyi təsdiq olunanadək onun müraciəti üzrə qərar verilə bilməz. O, digər mənbələrdən kompensasiya tələb etməsi barədə ən qısa zamanda CİCA-yə məlumat verməlidir.

Hələ cinayət işi məhkəmədə baxılan zaman qurban hesab edirsə ki, kompensasiya tələbi üçün yetərli sübutu var, o, gecikmədən müraciət etməlidir [17].

İki və ya daha çox xəsarət mövcuddursa, bu zaman qurbana ciddi xəsarətə görə cədvəldə nəzərdə tutulan kompensasiyanın 100 faizi, ona bərabər və ya ikinci ən ciddi xəsarətə görə cədvəldə nəzərdə tutulan kompensasiyanın 30 faizi, ona bərabər və ya üçüncü ən ciddi xəsarətə görə cədvəldə nəzərdə tutulan kompensasiyanın 15 faizi ödənilə bilər. Üçdən artıq xəsarət üçün kompensasiya ödənilməyəcəkdir. CİCA-in qərarından məhkəməyə şikayət etmək mümkündür [17].

Azərbaycan Respublikasının cinayət mühakimə icraatında zərərçəkmiş şəxsin zərərinin dövlət hesabına kompensasiyası hələki təcrübədə tətbiq edilməmiş hüquq institutudur. Belə ki, AR CPM-in 87.6.18-ci maddəsinə əsasən, zərərçəkmiş şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində ona vurulmuş ziyana görə qanunla müəyyən edilmiş kompensasiyanı dövlət hesabına almaq hüququ mövcuddur [1].

"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən, AR CPM-in zərərçəkmiş şəxsə kompensasiya verilməsi ilə bağlı 87.6.18-ci maddəsinin və XX fəslinin müddəaları müvafiq qanun qəbul edildikdən sonra qüvvəyə minir.

Nəzərinizə çatdıraq ki, yuxarıdakı Qanunun 2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq qanun" hələ də qəbul edilməmişdir. AR CPM-in XX fəslində isə kompensasiya ilə bağlı bir çox məsələ tənzimlənməmişdir. Yaxşı olar ki, bizdə də Fransa təcrübəsi əsas götürülməklə, ayrıca qanun qəbul edilmədən kompensasiya yalnız CPM ilə tənzimlənsin, Böyük Britaniyada olduğu kimi zərərlərə görə ödənilməli olan kompensasiyanı göstərən kompensasiya cədvəli hazırlansın və beynəlxalq təcrübə əsas götürülməklə bizdə də kompensasiyanın ödənilməsi üçün ayrıca fond təsis edilsin.

**İstifadə edilmiş mənbələr:**

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi // http://www.e-qanun.az/code/14
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // http://www.e-qanun.az/code/8
3. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 12.2, 87.2 və 106.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 15 aprel 2014-cü il tarixli Qərarı.
4. Abbasova F.M. Cinayət prosesi (ümumi hissə). Bakı: Zərdabi LTD, 2015, 412 s.
5. Ağayev İ.B. Cinayət tərkibi. Bakı: Təhsil, 2005, 496 s.
6. Əhmədov A.B. Şəxsiyyət əleyhinə olan cinayətlərdə viktimologiya problemi: Dissertasiya. Bakı, 2005.
7. Kişiyev A. Sovet cinayət-prosessual qanunvericiliyində zərər çəkmiş şəxsin hüquq və vəzifələri. Bakı: Azərnəşr, 1985.
8. Qəfərov M.S. Cinayət prosesində zərər çəkmiş şəxsin anlayışı barədə mülahizələr. Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası № 4, 2013.
9. Vəliyev X.R. Cinayətdən zərər çəkmiş şəxsin hüquq və qanuni maraqlarının beynəlxalq-hüquqi təminatları. Bakı: Qanun, 04 (270), 2017.
10. "Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında" Avropa Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu // http://www.e-qanun.az/alpidata/framework/data/0/f_585.htm
11. Akdemir S. Ceza hukukunda mağdurun korunması. (sosyal qruplaşmaya yönelik bir yanlaşımı). Akevler Akdeniz Bilimsel Araşdırma Merkezi yayınları. 4 Anadolu matbaacılık, 2003.
12. Baylan Ö. Vatandaşın devlet yönetimi hakkındakı şikayetleri ve Türkiye için İsveç, ombudsman formülü. Ankara, 1978.
13. Pamuk G. Türk ve Fransız Ceza Muhakemesi Hukukunda mağdurun makam olarak yeri/ G.Pamuk. İstanbul: Beta, 2012. 303 s.

14. Kafes, V. Ceza hukukunda mağdurun zararının giderilmesi, Ankara: Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi, 60(1), 2011. // https://dergipark.org.tr/en/pub/auhfd/issue/42488/511848

15. Конев Р.Ю. Проблема определения понятия «потерпевший» в отечественной и зарубежной криминологии // Виктимологические проблемы борьбы с преступностью. Материалы Междисциплинарной конференции. г. Ставрополь, 6 декабря 2002 г.

16. Accountability and Reparations Investigation Report: D.3: The Criminal Injuries Compensation Authority // https://www.iicsa.org.uk/publications/investigation/accountability-reparations/part-d-criminal-compensation/d3-criminal-injuries-compensation-authority (son baxış 01.04.2020)

17. A quide to applying for compensation under the Criminal İnjuries Compensation Scheme: What payments are available from the Scheme? (2014) // https://www.gov.uk/guidance/criminal-injuries-compensation-a-guide#contents (son baxış 01.04.2020)

18. Comparative report on national state compensation schemes/Author: Thomson Reuters Foundation, Beijing Women's Legal Counselling Service Centre, Hogan Lovells, 2015, 160 s. // https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://www.trust.org/contentAsset/raw-data/038ad26c-b7c2-4ce1-8e22-d57dad736f9c/file&ved=-2ahUKEwjKyIfFxfnoAhUF5aYKHdSwDosQFjAUegQIAxAC&usg=AOvVaw0f0l9MIoUWFppWFLCoxfg-

19. Ministry of Justice of UK. Criminal Injuries Compensation Scheme 2012 (amended) //https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/808343/criminal-injuries-compensation-scheme-2012.pdf

20. On The compensation of victims of crimes. Resolution (77) 27.

21. On The position of the victimin the framework of criminal law and procedure. Recommendation. R (85) 11.

22. Practical Guide on Admissibility Criteria, 4th edition (2017).

23. Summary of replies to the questionnaire on the European Convention on the compensation of victims of violent crimes, ETS No. 116 (2017) // https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://rm.coe.int/1680745923&ved=2ahUKEwjq0Z6lgvfoAhWKepoKHWRLDWg4ChAWMAR6BAgCEAE&usg=AOvVaw0jIT7L04BIUTplaaKoqS3K;

**Аскеров Агиль Илтифат оглу**

## ПРОБЛЕМЫ КОМПЕНСАЦИИ ПОТЕРПЕВШЕГО В УГОЛОВНОМ СУДОПРОИЗВОДСТВЕ

### РЕЗЮМЕ

Эта статья посвящена проблеме компенсации ущерба потерпевшему в уголовном процессе. Правовой статус, защита и обеспечение прав и законных интересов потерпевших являются важными вопросами уголовного судопроизводства как на теоретическом, так и на практическом уровне. Сегодня жертва уже не только свидетель, но и участник уголовного процесса со многими правами. Мы считаем, что вопрос компенсации потерпевшему в уголовном процессе должен быть решен, и институт компенсации должен быть развит.

**Asgarov Agil Iltifat**

## PROBLEMS OF COMPENSATION OF THE VICTIM IN CRIMINAL LEGAL PROCEEDINGS

### SUMMARY

The article is devoted to the problem of compensation for damages to the victim in criminal proceedings. The legal status and the protection and ensuring of the rights and legitimate interests of the injured persons are important questions of criminal legal proceedings both on theoretical and practical levels. Today the victim is no longer only a witness, but also a party to the proceedings criminal with many rights. The author believes that the issue of compensation for the victim in criminal proceedings should be resolved and the institution of compensation be developed.

**Rəyçi: V.Qasımov**
**Təqdim edən: h.ü.e.d., prof. M.S.Qəfərov**
**Daxil olma tarixi: 14.07.2020**
**Təkrar işlənmə tarixi: 07.08.2020**
**Çapa imzalanma tarixi: 25.08.2020**